**Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

# REGİON

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

**№ 106 (1234) 8 iyun - 9 iyun 2016-cı il**

# DÜŞMƏN QARŞISINDA QALADI TƏRTƏR

(əvvəli ötən saylarımızda)

**Biz Tərtər rayonunda olarkən təbii ki, daha çox cəbhə bölgəsindəki kəndlərin sosial-iqtisadi durumu ilə maraqlanırdıq. Düşmənlə üz-üzə dayanan insanların əhyatı, məişəti, həmçinin bu insanlara göstərilən diqqət hər kəs kimi bizim üçün də önəmli olduğu kimi, müəyyən qədər də öyrənilməli, təqdri edilməli bir durum idi. Məhz bu səbəbdən də əldə etdiyimiz bilgiləri gözdən qaçırmamağa, onların diqqətlə qeydlərini aparmağa çalışırdıq...**

> **"Azərbaycan dövləti daim öz vətəndaşının maraqlarının keşiyindədir. Bunu həyat göstərir. Eyni zamanda, üzləşdiyimiz təbii fəlakətlər də göstərir ki, fəlakətlər baş verdikdə Azərbaycan dövləti öz vətəndaşını darda qoymur, onun problemlərini həll edir. Deyə bilərəm, Azərbaycan dünyada nadir ölkələrdəndir ki, vətəndaşlar üçün dövlət hesabına evlər tikir".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Bu gün Tərtər rayonunda rayon mərkəzi ilə kəndləri birləşdirən yolların normal, işlək vəziyyətdə olması əsas məsələlərdən biridi. İstər ölkə rəhbərliyi, istərsə də rayon icra hakimiyyətinin başçısı və onun apparatı Tərtərdə yol problemlərinin aradan qaldırılması üçün gərəkli olan bütün addımların atılmasında və həmin yolların da standartlara cavab verməsində kifayət qədər iş görə bilmişdilər. Təkcə bir fktı xatırlamaq yerinəd düşər ki, Tərtər rayonunda bu coğrafi məkan üçün əhəmiyyətli olan Qaradağlı-Seysulan avtomobil yolunun ən müasir şəkildə, yəni asfalt-betonla yenidən çəkilib istismara verilməsi üçün uğurla işlər aparılır. Deməklolar ki, artıq bu yolun təqribən 1km-ə yaxın hissəsinin asfalt-beton örtüyünün alt qatı çəkilib yekunlaşmışdı. Bununla paralel olaraq digər bir yolun, yəni Qaraqoyunlu-Köçrəi kəndlərini birləşdirən avtomobil yolunun da 1 km hissəsi çınqıl örtüyü ilə tikilmiş və burada da digər zəruri işlərin görülməsi nəzərdə tutulubdu.

Kənd yolları ilə yanaşı, Tərtər rayonu üçün əhəmiyyətli olan enerji təminatı da bu gün uğurla həll olunur. Yəni istər döyüş bölgəsində yaxın ərazidəki kəndlərin, istərsə də cəbhədən nisbətən aralı olan digər yaşayış massivlərinin enerji təimnatı, raböitə məsələləri rayon icra hakimiyyəti tərəifndən mütəmadi olaraq diqqət mərkəzində saxlanılır.

Bütün bu işlərlə yanaşı, Tərtər rayonunda yeni binaların tikilməsi də, həmin binaların şəhid və əlil alilələrinə verilməsi istiqamətində gərəkli məsələlər çözülmüş və faktiki olaraq rayonda tkiilinə 54 mənzilli 6 mərtəbəli yaşayış binasının tikintisi bütünlüklə başa çatdırılmışdı.

Bu binanın Qarabağ müharibəsi əlillərinin və şəhid ailələrinin həyat səviyyəsinin yaxşılaşdırılması, onlara göstərilən qayğənını bariz nümunəsi olması kimi də dəyərləndirmək zənnimcə ən dəqiq ifadədi. Üstəlik, bu gün Tərtər rayonunda 4 ədəd 5 mərtəbəli binanın da enerji, rabitə vasitələri ilə təmin olunması, bütün yaşayış masivlərinin küçə və prospektlərinin, pakrlarının işıqlandırılması istiqamətində də atılan addımlar sakinlərin ürəiyncədi.

Biz Tərtər rayonunda olarkən onu da öyrəndik ki, rayonun Sarıcalı-Zolgəran kəndləri arasında, yəni Tərtər çayı üzərində bu kəndlər arasındakı əlaqəni tam təhlükəsiz etmək üçün Tərtər çayı üzərində yeni və daha möhkəm özüllü körpünün tikintisi üçün başlanmış hazırlıq işləri demək olar ki, start xəttinə çatdırılıbdı. Bu körpünün tikilib başa çatdırılması özü-özlüyündə rayonan kəndləri arasındakı əlaqəni daha da möhkəmlətməklə bərabər, həm də təhlükəsiz olmasına bir təminatdı.

Təbii ki, Azərbaycanın digər bölgələri ilə yanaşı, Tərtərdə də təbii qaz təminatı həmişə həm rayon rəhbərliyini, həm də sakinləri qayğılandıran məsələlrdən olmuşdu. Əldə etdiyimiz bilgilərə istinad edərək deyə bilərik ki, bu gün Tərtər rayonunun qazlaşdırılması məsələsi uğurla davam etdirilir. Bu ilin I rübünün statistikası göstərir ki, artıq rayonun İsmayılbəyli kəndinə də qaz verilməsi, yəni xəttlərin çəkilməsi işi artıq yekunlaşıbdı. İsmayılbəyli kəndi ilə yanaşı, Tərtər rayonunun Hacıqərvənd və eləcə də Evoğlu kəndlərində də qaz xəttlərinin çəkilməsi işlərinin sürəti hər kəs razı salır və demək olar ki, yaxın zamanlarda hər iki kəndə qaz çəkilişi başa çatdırılacaqdı. Bu gün Tərtərin Seydimli, eləcə də Seydimli-Borsunlu kəndləri istiqamətində də müxtəlif diametrli qaz xətlərinin çəkilişi plana uyğun şəkildə yerinə yetirilir. Ümumiyyətlə isə rayonun qaz təminatını günün tələbləri səviyyisi nə qaldırmaq üçün bütün yaşayış məntəqələrinə qazın verilə si məsələsi bir proqramm şəklində rayon rəhbərliyi qarşısında dayanır və faktiki olaraq bu il rayonun Kəngərli, Mamırlı, Poladlı və Dəmirçilər kəndlərinin də qazla təmin edilməsi üçün müxtəlif ölçülü xətlərin çəkilişi üçün start veriləcəkdi.

Ölkə həyatının ən önməli sahələrindən olan təhsil, səhiyyə və mədəniyyətinin təkcə paytaxtda və iri şəhərlərdə deyil, həmçinin döyüş bölgələrindəki məntəqlələrimizdə də daim nəzartədə saxlanılması Azərbaycan prezidenti İlham Əliyev cənablarının əlaqədar qurumlar qarşısında qoyduğu əsas vəzifələrdən biridi. Həmin təhsil, səhiyyə və mədəniyyət sahələrinin hazırkı durumunu Tərtər rayonunun da göstəriciləri üzərində araşdırarkən məlum oldu ki, bu rayonun da əlaqədar qurumları öz üzərlərinə düşən işi uğurla yerinə yetirirlər. Faktiki olaraq rayonda keçirilən məktəblilərin fənn olimpiyadalarında yüksək nəticə göstərən məktəblilər respublika olimpiyadasında da qaliblər arasında ola bilmişdilər.

Xüsusilə 11-ci sinif şagirdlərinin ümummilli liderimizin böyük irsini öyrənmək məqsədilə keçirilən yarışmalarda öz nailiyyətləri ilə həm valideynlərini, həm də müəllimlərini sevindirmişdilər. Təbii ki, şagirdlərin yaxşı oxuması, bilikləri mənimsəməsi üçün müasir məktəb binalarının, müasir avadanlıqların olması zəruridi. Bu istiqamətdə də həm Heydər Əliyev Fondunun, həm də yerli imkanların hesabına görülən işlər göz önündədi.

Eləcə də rayonun səhiyyə sahəsində də müəyyən nailiyyətlər əldə edilməsi, vətəndaşların icbari tibbi müayindən keçirilməsi, həmçinin xəstəxana və tibb məntəqələrinin avadanlıqlarla təminatı istiqamətində də bir çox işlərin görülməsi artıq bir reallıqdı.

**Bu gün Tərtərdə həyata keçirilən uğurlu inkişaf proqramı öz sürətini günbəgün artırır.**

***Əbülfət MƏDƏTOĞLU***






AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ